Aşura Peyğəmbəri Həzrət Zeynəb(s.ə)kitabı

Aşura Peyğəmbəri Həzrət Zeynəb(s.ə) kitabı

İran İslam Respublikasının Naxçıvandakı
Baş Konsulluğunun Mədəniyyət Attaşeliyi

İran İslam Respublikasının Naxçıvandakı
Baş Konsulluğunun Mədəniyyət Attaşeliyi

Ali Dini Rəhbəri Həzrət Ayətullah Seyid Əli Xamenenin bəyanatı:

"Həzrət Zeynəbi Kübra (s.ə) həmin şəxsdir ki, Aşura hadisəsini canlı saxlayaraq, onun həmin dövrün hakim sisteminin siyasi hiylələri ilə aradan aparılmasına, unutdurulmasına və ya tarixdə köhnəlməsinə maneə oldu. Həzrət Zeynəbi Kübra (s.ə) bu hadisəni əbədi yaşatdı." (03.11.2015)

Kitabın adı: Aşura peyğəmbəri Həzrət Zeynəb (s.ə)

Kitabın müəllifi: Məhəmməd Məhəmmədi Eştehardi

Tərtibatçı: Əbülfəzl Rəbii

Çap: 2021

E_BOOK

Dizayner: Əbülfəzl Rəbii

Mündəricat

Giriş _____ 5

Həzrət Zeynəbin (s.ə) uşaqlığı _____ 9

Həzrət Zeynəb (s.ə) Aşura Ayinində _____ 12

Həzrət Zeynəbin (s.ə) Kufədə oxuduğu xütbədən parçalar __ 15

Həzrət Zeynəbin (s.ə) Yezidə qarşı xütbələrindən hissələr ___ 17

Aşura peyğəmbəri

Həzrət Zeynəb

(s.ə)

Allahın adı ilə

Giriş

Səfər ayı münasibətilə Kərbəla şəhidlərinin əhvalatlarını çatdırmaq üçün o əzəmətli və şövkətli xanımın sərgüzəştlərini qeyd etməliyik. Həqiqətən də, Aşura hərəkatının tamamlayan şey, həmin hərəkatın mahiyyəti idi. Bununla bərabər, ayrılıq və əsirliyin ağır yükünü öz çiyinlərində daşıyan bu izzətli xanım hər yerdə və hər fürsətdə Həzrət İmam Hüseynin (ə) qiyamının hədəf və məqsədləri barədə insanlara məlumat verirməklə, zalımları ifşa edirdi.

Həzrət Zeynəbin (s.ə) qəhrəmanlığını təsvir etmək çox çətindir. O xanım Aşura hadisəsindən sonra misilsiz şücaət göstərərək, çoxsaylı bəlaların və hadisələrin qarşısında mətanətlə dayanmaqla, yeni cücərməkdə olan Aşura toxumlarını mühafizə edərək özü ilə Kufəyə, Şama, Mədinəyə və getdiyi hər yerə apardı. O, apardığı mübarizəsində Aşura

həqiqətlərinin toxumlarını yorulmaq bilmədən daha da böyüdərək, inkişaf etdirdi.

Buna görə də, Aşura qiyamı İmam Hüseynin (ə) mübarizəsinin məhsulu olsa da, Həzrət Zeynəb (s.ə) o hərəkatın toxumlarının çiçəklənməsində böyük rola malikdir. Çünki o, bu hərəkatın fəlsəfəsini çox mükəmməl şəkildə qorumaqla, onu bütün dünyaya çatdırılmasında müvəffəq olmuşdur.Bəlkə də buna görədir ki, peyğəmbər Həzrət Zeynəbin (s.ə) xüsusiyyətlərini Həzrət Xədiceyi Kübraya (s.ə) bənzədirdi. Həzrət Zeynəbin (s.ə) doğum xəbərini həzrət peyğəmbərə (s) xəbər verdikləri zaman buyurdu: "Yeni doğulan körpəni mənim yanıma gətirin." Həzrət Zeynəbi (s.ə) peyğəmbərin (s) yanına aparanda dedi: "Burada olanlara və burada olmayanlara vəsiyyət edərək, tapşırıram ki, bu xanımın ehtiramını saxlasınlar. Çünki o, Həzrət Xədiceyi Kübranın (s.ə) bənzəridir. Həzrət peyğəmbərin bu sözündə dərin bir sirr var idi. Səbəbi isə budur ki, necə ki, Həzrət Xədiceyi Kübra

(s.ə) İslam dininin inkişafı üçün çox böyük xidmətlər göstərərək, bir ana kimi İslamı böyüdüb, bütün sərvətini onun güclənməsi yolunda sərf etmişdi, Həzrət Zeynəb (s.ə) də öz nənəsinin ənənəsinə sadiq qalaraq, İslam dininin qurtuluşu üçün ən əzəmətli hərəkatlardan biri olan Aşura qiyamına natəmiz insanların əl uzatmasına icazə verməyərək, bütün həyatını bu yola həsr etmişdir.

Həzrət Zeynəb (s.ə) elə bir xanımdır ki, həzrət peyğəmbər (s) səbr etdi ki, uşağın adı uca Allah tərəfindən qoyulsun. Bu zaman həzrət Cəbrail nazil olaraq həzrət peyğəmbərə (s) dedi: “ Uca Allah sənə salamını çatdıraraq buyurdu: “Bu qızın adını Zeynəb qoyasan. Çünki bu ad Lövhi məhfuzda yazılıb.”

Zeynəb sözü iki hissədən “Zeyn” və “əb” dən ibarətdir və mənası “atasının zinəti” deməkdir. Həzrət Zeynəbə (s.ə) bu adın verilməsi o demək idi ki, o atası Həzrət Əlinin (ə) başını uca edərək, onu zinətləndirəcəkdir. Bununla da, İslama iman

edən ilk şəxs olan, bütün varlığı ilə həzrət peyğəmbərin (s) yanında dayanan və İslam dini üçün ən böyük fədakarlıqları edən Həzrət Əlinin qızı (ə) həzrət Zeynəbin (s.ə) əzəmətini anlamaq olar. İslam dini ilk əvvəl peyğəmbərin əxlaqı, həzrət Əlinin (ə) qılıncı və həzrət Xədicənin səxavəti ilə inkişaf etdi. Buna görə də, həzrət Zeynəbin (s.ə) həzrət Əliyə (ə) o qədər yaxın idi ki, öz davranışları və rəftarları ilə Əmirəlmöminin həyatını zinətləndirməklə onun başını daha da ucaldırdı.

Həzrət Zeynəbin (s.ə) uşaqlığı

Kiçik yaşlarında həzrət Zeynəbin (s.ə) əxlaqı

Psixoloqlar deyir: “İnsanın şəxsiyyətinin inkişafı və formalaşmasında 3 faktor əsas rol oynayır: 1. Ailə 2. Təlim 3. Mühit

Bu üç amilin həzrət Zeynəbin (s.ə) həyatına birbaşa müsbət təsiri var idi. O bütün bu xüsusiyyətləri atası həzrət Əlidən (ə) və anası həzrət Fatimədən (s.ə) almışdı. Nəzər saldıqda görürük ki, bu uşaq ata və anasının himayəsində səmimiyyət, səfa və mehribanlıq mühitində nümunəvi bir şəkildə böyüdülüb. O, Mədinə şəhərində, həzrət peyğəmərin (s) pak və ixlaslı ailəsinin içərisində, bəşəriyyətin parlaq ulduzlarının və ən yüksək İslami dəyərlərə malik olan insanların əhatəsində böyüyərək, inkişaf edib. Buna görə də, elə kiçik yaşlarından etibarən başqa insanların insaniyyət yolunda 100 il ərzində qət edəcəyi məsafəni bir gecədə gedirdi.

Rəvayət olunur ki, günlərdən bir gün həzrət Əli (ə) qızı həzrət Zeynəbi (s.ə) qucağına alıb, ona nəvaziş edərək buyurdu: “ De: İki. həzrət Zeynəb (s.ə) sakit dayandı. İmam Əli (ə) soruşdu: “Niyə sakit dayandın qızım? Danış görüm. Həzrət Zeynəbi (s.ə) özünəməxsus şirin danışığı ilə dedi: “Əziz atam! Bir deməyə adət etmiş olan dilim necə iki deyə bilər?! (Burada həzrət Zeynəbin (s.ə) nəzərdə tutduğu uca Allahın birliyi idi ki, bütün varlığı ilə ona şahidlik edirdi.) həzrət Əli (ə) azyaşlı qızı həzrət Zeynəbin (s.ə) bu cavabından çox şad olaraq onu bağrına basıb, alnından öpdü.

Bu dəfə isə həzrət Zeynəb (s.ə) atasından belə bir sual soruşdu: “Atacan! Sən övladlarını sevirsən? İmam Əli (ə) cavab verdi: “Bəli, əlbəttə. Sizi necə sevməyə bilərəm”?! Siz mənim qəlbimin meyvələrisiniz.” Xanım Zeynəb (Uca Allahın birliyini başa düşürdülər.) buyurdu: “ Əziz ata! Bir qəlbdə iki sevgi sığa bilməz. Həqiqi sevgi uca Allah üçündür. Lütf və mehribanlıq isə bizim üçündür.”

Məna dolu olan həmin bəlağətli cavab İmam Əlinin (ə) sözlərinin izahı idi ki, zahiri sevgi mehribanlıqdır. Həqiqi sevgi isə yalnız uca və yeganə varlıq olan Allaha olmalıdır. İmam Əli (ə) belə suallar hazırlamaqla, xanım Zeynəbin (s.ə) məqamını digərlərinə nümayiş etdirirdi. Əlbəttə ki, beş ən uca məqamlı şəxsin (Ali əbanln) himayəsində böyüyən bir insan niyə də belə olmasın?!

Günlərdən bir gün Həzrət Əlinin (ə) evinə bir nəfər qonaq gəldi. Evdə yemək yox idi. İmam Əli (ə) xanımı həzrət Fatimədən (s.ə) soruşdu: "Evdə yemək varmı? Həzrət Fatimə cavab verdi: "Evdə cəmi bir ədəd çörək var. Onu isə Qızım Zeynəb (s.ə) üçün saxlamışam. Həmin vaxt beş yaşında olan Zeynəb (s.ə) oyaq idi. O, bu söhbəti eşidən kimi dedi: "Mənim çörəyimi qonağa verin. Mən səbr edərəm." Bəli, elə uşaq yaşlarından xanım Zeynəbin (s.ə) simasından əzəmət və şövkət yağırdı. Bütün bunlar isə onu göstərirdi ki, o gələcəkdə

çox dəyərli və izzətli bir xanım olacaqdır. Onun varlığı uca Allahın ilahi cilvələrini təcəlli etdirirdi.

Həzrət Zeynəb (s.ə) Aşura Ayinində

Aşura hərəkatı və mədəniyyətinin təkmilləşməsi və tanıdılmasında Həzrət Zeynəb İmam Hüseyn (ə) qədər mühüm rola malik olmuşdur. Ümumiyyətlə demək olar ki, O xanımın bu böyük hadisədə iştirakı İmam Hüseyndan (ə) başqa hamıdan daha artıqdır. O, Mədinədən Məkkəyə, oradan isə Kərbəlaya qədər olan səfər zamanı, o cümlədən də, Aşura günü olarkən imam Hüseynin (ə) ən xalis köməkçisi və iki gəncin – Məhəmməd (s) və Övnün (ə) şəhadətinə qədər onun möhkəm dayağı idi. imam Hüseynin (ə) qanına bulaşmış o iki gəncin cəsədini döyüş meydanından kənara çıxardıqda Xanım Zeynəb (s.ə) xeyməyən çölə çıxmadı ki, birdən İmam (ə) xanım Zeynəbi (s.ə) pərişan halda görüb daha da narahat olar. Lakin,

Həzrət Əliəkbərin (ə) cənazəsi gələndə xeymədən çölə qaçdı və o həzrətin parçalanmış bədənini qarşılamağa tələsdi. Bir sıra rəvayətlərə əsasən, Xanım Zeynəb (s.ə) qardaşını təsəlli etmək üçün imamdan (ə) daha əvvəl onu qarşılamağa getdi. İmam Hüseyn (ə) qətlgaha yetişdikdə ilk olaraq gözü Xanım Zeynəbə (s.ə) sataşdı. Bu isə Həzrət İmam Hüseynin (ə) narahatçılığının şiddətini azaltmaqda mühüm təsiri etdi.

Xanım Zeynəb (s.ə) Aşuradan sonra üç həssas məsələnin həllini öz öhdəliyinə götürdü.

1. Şəhidlərin qalan ailələrini himayə etmək
2. Həmin dövrün imamı olan İmam Səccaddı (ə) qorumaq
3. Şəhidlərin mesajlarını xalqa çatdırmaq

Onun Kufə şəhərində, İbni Ziyadın məclislərində oxuduğu xütbələr, həmçinin, Şamda Yezidin məclislərində oxuduğu xütbələr o qədər təsirli və alovlu idi ki, ildırımın taxılı

yandırdığı kimi zalımları yandırıraraq, onların həyatlarını alt-üst edirdi. Onun nuru o qədər parlaq idi ki, Aşura mədəniyyətini bəyan edərək, xalqı onun hədəf və dəyərlərinə doğru cəzb edirdi. O, Məhərrəm ayının on birinci günündə vücudu parça-parça olmuş olan qardaşı İmam Hüseynin (ə) yanına gələndə, onun bədənini əlləri ilə bir az yerdən qaldırdı və dedi: "İlahi bu qurbanı bizdən qəbul et!"

Bu təfsir Həzrət Zeynəbin (s.ə) Allahın yanında son dərəcə təvazökarlığını və minnətdarlığını və eyni zamanda sözlərinin düşmənin qəlbinə bir ox kimi saplanmasını göstərir ki, ey daş qəlbli düşmənlər! Heç vaxt xar olduğumuzu düşünməyin. Əksinə, biz qürur duyuruq. Çünki Allah üçün qurban verdik!

Buna görə də, İbn Ziyad məclisində həyasızlığı ucbatından Xanım Zeynəbə (s.ə) dedi: "Allahın qardaşına və ailənə nə etdiyini gördünmü? Xanım Zeynəb (s.ə) cavab verdi: "Gözəllikdən başqa bir şey görmədim. O insanlar, taleyi

şəhidlik məqamına layiq görülmüş insanlar idilər. Buna görə də könüllü olaraq öz şəhadətlərinə tələsirdilər. Tezliklə Allah sizi imtahan etmək üçün onlarla səni bir yerə toplaşacaq və səni mühakimə edəcək. İndi gör o məhkəmədə kim qalib, kim isə uduzan və acizdir? Anan yasında otursun ey Mərcanın oğlu!

Həzrət Zeynəbin (s.ə) Kufədə oxuduğu xütbədən parçalar

Həzrət Zeynəb (s.ə) Kufədə iki xütbə oxudu, Hizyəm ibn Şərik Əsədi deyir: "Həzrət Zeynəbə (s.ə) nəzər saldım. Allaha and olsun ki, mən o günə qədər onun kimi fəsahətli, qətiyyətli və bəlağətli danışan nəcib və ismətli bir xanım görməmişdim. Sanki onun sözləri İmam Əlinin (ə) dilindən deyilirdi. İnsanlara sakit olmağı işarə etdi. Həmin işarə ilə nəfəslər sinələrdə sıxışdı. Kkarvanların boynundakı zınqırovları hərəkət etməyi dayandırdı. Sonra Həzrət Zeynəb

(s.ə) Allaha həmd və sənа, peyğəmbərə (s) və pak ailəsinə salam söyləyərək xütbəyə başladı. Həzrət Zeynəbin (s.ə) bu xütbəsi insanlara o qədər təsir etdi ki, fəryad və harayları eşidildi. Onlar dərin yas içində idilər. Təəccüblənmiş və pərişan halda İmam Hüseynin (ə) köməyinə tələsmədiklərinə görə peşman olduqlarını bildirirdilər.

Bu xütbənin bir hissəsində oxuyuruq: “Ey hiyləgərlər və əhdi pozanlar, ey vəfasız və hiyləni özlərinə peşə edənlər! Siz ipini toxuduqdan sonra onun iplərini açan qadın kimisiniz. Siz öz andlarınızı aranızdakı fəsadlar üçün vasitə etdiniz.

Xanım (s.ə) dedi: “Ey Kufə camaatı! Vay halınıza, Allahın peyğəmbərinin (s) qaraciyparəsini öldürdüyünüzü bilirsinizmi? Hansı hicablı xanımları hərəmlərindən çıxardınız? Kimlərin qanını tökdünüz? Bilirsinizmi hansı şəxsləri təhqir etdiniz? Bunun üçün göydən qan yağması sizin üçün təəccüblüdürmü? Həqiqətən də, sizin üçün axirət əzabı

daha biabırçı olacaq. Sizə heç kim kömək etməyəcək və verilən müddətdən heç bir fayda görməyəcəksiniz ... Xütbənin son hissəsində Zeynəb (s.ə) şeir oxudu və qardaşı Hüseynin (ə) ürəkləri dağlayan əzablarına ağladı. Bu zaman o qədər əsəbiləşib ağlayır və o qədər həssas danışırdı ki, İmam Səccad (ə) ona belə təsəlli verdi: "Allaha şükürlər olsun ki, sən elm öyrənmədən alim və ağıl öyrədilmədən ağıllısan! səbr et. Ağlamaq və nalə etmək heç kimi geriyə qaytarmaz! Həzrət Zeynəb (s.ə) İmam Səccadın sözlərindən sonra sakitləşdi.

Həzrət Zeynəbin (s.ə) Yezidə qarşı xütbələrindən hissələr

Yezidin məclisində hər şey zahirdə Yezidin xeyrinə görünürdü. Amma Həzrət Zeynəb (s.ə) xütbə oxuyanda həqiqətən də hər şeyi dəyişdi. Çaxan şimşək və şiddətli yağış fırtınası kimi, Yezidin bütün rüsvayçı həyatını günahlandırdı. Həmin xütbədən bəzi parçalar:

“Doğrudan da, təmiz qaraciyəri çeynəyib çölə atan və əti şəhidlərin qanından cücərən birinin oğlundan nə gözləmək olar?! Bu xütbədən əvvəl Yezid bununla fəxr edirdi ki, Xəndəf övladlarından biridir ki, on üç vasitəçi ilə onun nəslinə çatır. Xəndəf isə öz zamanında xeyirxah bir xanım kimi tanınırdı. Bu vaxt Həzrət Zeynəb (s.ə) Yezidə dedi: Niyə bu qədər uzağa gedirsən?! “On üçüncü nənəndən danışma. Əksinə, daha yaxın zamanda olan nənən olan Müaviyənin anası Hinddən danış ki, Uhud döyüşündə Həzrəti Həmzənin (ə) qaraciyərini çıxararaq dişinə çəkib, qanını içməsi ilə məşhurdur.

Allaha and olsun ki, öz dərinizdən başqa heç bir şey kəsmədiniz və öz ətinizdən başqa heç bir şey qoparmadınız. Şübhəsiz ki, peyğəmbər (s) ailəsinin qanını tökmək və müqəddəsliyini təhqir etmək kimi ağır yüklə Allahın elçisinin (s) yanına gedəcəksiniz. O zaman, Allah hamını bir yerə toplayıb qisasımızı alacaq. Sənin üçün bu əzab kifayətdir ki, Allahın məhkəməsində hökmdar və hakim Allahdır.

Peyğəmbərimiz Məhəmməd (s) isə bizim adımıza iddiaçıdır. Cəbrayıl bizim himayədarımızdır. Tezliklə sizi aldadan və sizi xalqın içərisinə salan (yəni Müaviyə) bunun zalımlar üçün pis bir sonu olacağını anlayacaq.

Zəmanə məni sənlə danışmağa vadar etsə də, mənim üçün dəyərin yoxdur. Bil ki, təəccüblü və heyrətləndiricidir ki, Allahın tərəfindən vuruşan şəxslər şeytanın ordusu tərəfindən öldürülüb. İstədiyin hiyləni et. Bacardığınız hər şeyi et. Əlindən gələni əsirgəmə. Allaha and olsun ki, nə adımızı silə bilərsiniz, nə vəhyimizi söndürə bilərsiniz, nə də bizim məqamımıza çata bilərsiniz! Bu zülmün damğasını heç vaxt aradan qaldıra bilməzsən. Baxışın zəifdir və hökumətinin günlərinin sayı azdır. Sənin xalqın haqqın carçısının fəryad edəcəyi (Qiyamət) gününə qədər pərakəndə və başsız qalsın. Allahın lənəti zalımlara olsun!

Həzrət Zeynəbin (s.ə) xütbəsi ümumiyyətlə Yezid Məclisinin, hətta Şamın vəziyyətini dəyişdirdi. Hamının

əhvalını dəyişdirdi. Həzrət Zeynəbin (s.ə) güclü məntiqi və müqəddəs ruhu səbəb oldu ki, Yezid və tərəfdarlarında bu qədər qorxu yaransın. Yezid Həzrət Zeynəbin (s.ə) zehnindəki söz alovunu söndürə bilmədi. Çünki məclis üzvlərinin Həzrət Zeynəbin (s.ə.) atəşli sözləri dairəsində olduğunu görürdü. Ondan sonra, Yezidin zahiri siyasəti dəyişdi. Zahirdə peşman idi və İbn Ziyadı günahlandırırdı. Yezid İmam Hüseynin (ə) ailəsinə yumşaqlıq və gözəl əxlaqla davranmağı əmr etdi. Tapşırıq verdi ki, onları hörmətlə Mədinəyə qaytarsınlar. Dəvə kəcavələrini (İnsanları və ya yükləri daşımaq üçün taxtadan hazırlaraq dəvələrin üzərinə qoyulan otaq bənzəri yükdür.) parlaq parçalar və zinətlə bəzəsinlər. Həzrət Zeynəb (s.ə) yüksək sayıqlıq, qətiyyət və tədbirə malik idi. Yezidin bu cür bəhanələrlə şəhidlərin qanını unutdurmaq istədiyini anladı və dərhal dedi: “Dəvə kəcavələrina qara parçalar bağlayın.

İnsanlar bilsinlər ki, biz Həzrət Zəhranın (s.ə) oğlunun şəhid olması üçün yas saxlayırıq. Bu çıxış insanlarda böyük həyəcana səbəb oldu.

Son